*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.411-421*

https://doi.org/10.62837/2025.5.411

**TAHİR BAYRAM OĞLU AĞAYEV**
Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının dosenti,
fəlsəfə üzrə fəlsəfə doktoru
**t.aqaev@mail.ru**

# AZƏRBAYCAN GƏNCLİYİ VƏ DİN: İCTİMAİ RƏY KONTEKSTİNDƏ SOSİOLOJİ TƏHLİL

Açar sözlər: **din, dini radikalizm, dini təhdid, sosioloji sorğu, tədqiqat metodu**

Din insanın təbiətində dərin köklərə malikdir və onun həm mənəvi, həm də sosial ehtiyaclarını qarşılamaqda mühüm rol oynayır. İnsan təbiəti etibarilə həmişə öyrənmək, bilmək istəyi ilə yanaşı, həm də inanca ehtiyacı olan bir varlıqdır. Belə ki, elm və texnika sürətlə inkişaf etsə də, elmin nailiyyətləri ilə insan hər şeyə cavab tapa bilmir. Hansı formada olursa-olsun, bu və ya digər halda insan nəyəsə – özündən güclü bir varlığa, güvənmək istəyi, hər yerdən ümidinin üzüldüyü, heç kimin ona köməklik edə bilmədiyi bir vəziyyətdə üzünü məhz föqəlbəşər bir varlığa tutur. Bu anlayışı ifadə edən məfhum dindir. Xüsusilə gənclərimiz bu kimi məsələlərdə çox diqqətli olmalıdırlar. Reallıq ondan ibarətdir ki, bu gün bir sıra dairələr müsəlmanları öz dinlərindən uzaqlaşdırmaq, milli kimlikdən, öz soyundan və kökündən qoparmaq üçün böyük səy göstərirlər. Alman filosofu və din tarixi sahəsində görkəmli mütəxəssis Maks Müllerin (1823-1900) qeyd etdiyi kimi, sitayiş etmə ehtiyacı insan təbiətinin ayrılmaz hissəsidir və bu, hətta ən ibtidai cəmiyyətlərdə belə müşahidə olunur. Geridə qalmış və inkişaf etmiş xalqlarda, mağaralarda ibtidai bir həyat tərzi keçirən qəbilələrdə belə bu ehtiyac mövcud olmuşdur. Nə qədər qədim dövrlərə getmiş olsaq da, dinsiz bir millətin yaşadığına rast gəlmirik. Elə bir sivilizasiya yoxdur ki, orada bir məbədə, kilsəyə, məscidə rast gəlməyək. Din, insanın yalnız fərdi inancını deyil, həm də cəmiyyətin mədəni və əxlaqi dəyərlərini qorumaqda körpü rolunu oynayır.

Müasir Azərbaycan cəmiyyətində gənclərin dinə münasibətini birmənalı şəkildə qiymətləndirmək olmaz. Ölkəmizdə dini radikalizmə qarşı mübarizədə müxtəlif institutlarla, o cümlədən gənclər təşkilatları ilə sıx əməkdaşlıq edilir. Dini xurafat, dini radikalizm və ekstremizmə qarşı mübarizədə gənclər mühüm rol oynayır. Bu dövrdə gənclərin yad təsirlərdən qorunması, vətəndaşların dini etiqad sahəsində milli dövlətçilik maraqlarına uyğun şəkildə maarifləndirilməsi, habelə bu fəaliyyətin həyata keçirilməsində innovativ və operativ texnoloji imkanlardan istifadə edilməsi zərurəti yaranmışdır.

XX əsrdə dinlərin məhv olması ilə bağlı bəzi nəzəriyyələrə baxmayaraq, din müasir mərhələsinədək uzun yol qət etmişdir. Müasir dünyada din, bir tərəfdən dini

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 411-421*

fundamentalizm (doqmatikanın və dini ehkamların dəyişilməzliyini təkid edən mühafizəkar bir istiqamət), digər tərəfdən isə modernizm (dinin yenilənməsi, müasir reallıqlara uyğunlaşması vəzifəsini qoyan digər istiqamət) formaları arasında mübahisə predmetinə çevrilmişdir. Bunun mühüm səbəblərindən biri dinin Azərbaycan da daxil olmaqla dünyanın əhəmiyyətli bir hissəsində müasirliyin çağırışına, siyasi və iqtisadi böhranlara, sosial və dini sarsıntılara, bəzi hallarda isə ədalətsiz müharibələrə reaksiya olaraq ənənəvi dəyərlərin canlanmasına yönəlmiş bir dialoq qabiliyyətinə sahib olmasıdır.

XIX əsrdə elmin yüksək səviyyədə inkişaf etməsi nəticəsində insanların bütün ehtiyaclarının təmin olunacağını güman və diktə edən materialist filosofların iddiaları materializmin iflası ilə özünü doğrultmamışdır. Bu əsrdə islam dininin köməyi ilə müxtəlif təriqətlər arasındakı düşmənçiliyi aradan qaldırmaq, onların baxışları arasındakı ziddiyyətlərin uzlaşmasına yönəlmiş bir sıra cəhdlər göstərilsə də, təəssüf ki, buna birmənalı surətdə nail olunduğunu deyə bilmərik.

Dinin gələcəyi ilə bağlı ilkin sosioloji proqnoz özünü doğrultmadı. Buna baxmayaraq, Kontun pozitivist ideyası, yəni dinin elmlə əvəzlənməsi proqnozu XX əsrin ilk üçdə birinə qədər ictimai şüurda hökmranlıq etmişdi. İkinci sosioloji nəzəriyyə, əslində isə dinin yox olmasından bəhs edən ikinci oxşar proqnoz, dinin "yalançı şüur" kimi formaları olan marksist proqnoz da özünü təsdiq edə bilmədi. Üçüncüsü və ən çox müzakirə ediləni M. Veberin “müqəddəsliyin itirilməsi” nəzəriyyəsidir. O, din və müasir praqmatik şüur arasında qaçılmaz qarşıdurmanı və sonuncunun şərtsiz qələbəsi haqqında proqnoz vermişdir.[2]

Hazırda isə “müqəddəs başlanğıc” var olmağa davam edir, din bu formada xüsusi bir fenomen kimi insanların həyatında daim mövcuddur və sosial təcrübəni təcəssüm etdirir. Din dünyanın illüziyası və ya yanlış izahı deyil, onu həqiqi elmi biliklər aradan götürə bilməz. Bu xüsusiyyətlər məşhur sosioloq E.Dürkheym tərəfindən vurğulanmışdır.

Bəzi tədqiqatçıların və din xadimlərinin fikirlərinə görə, iman və bilik arasında ziddiyyət yoxdur. Ancaq bütün əsrlər və xalqlar mistik təcrübənin elmi məlumatlarla möhkəmləndirilməsinin mümkün olub-olmaması ilə bağlı mübahisələrlə tanışdırlar. Dinin bu mübahisəsi elmlə deyil, elm adından danışmağa adət etmiş skientizm ideologiyası ilədir.

XX əsrin 90-cı illərində post-sovet məkanında O. Kontun proqnozlarına əks olaraq irrasionalizm və mistisizm tələbi üzə çıxır. Buna cəmiyyətin islahatına texnokratik yanaşma, əhalinin böyük hissəsinin son dərəcədə yoxsullaşması bahasına ölkənin modernləşdirilməsi, təkcə mənəvi deyil, həm də hüquqi normalara etinasızlıq və cəmiyyətin kriminallaşdırılması kömək etdi. Sovet xalqının bir neçə nəslinin yaşadığı köhnə dəyərlərin və ideallarin gözdən salındığı, mənəvi boşluq yarandığı böhran dövründə ziyalılar və təhsil sistemi xalqın şüurunu dəstəksiz qoydu. Bir çox xalqların dini inancı dünənki inamsızlığın inversiyasından başqa bir şey deyil.

Keçmiş kommunistlər, ateistlər bir gecədə mömin oldular. Ənənəvi inanca və etnokonfessional kimliyə müraciətlə yanaşı, sehr, okkultizm və ekzotik kultlara heyranlıq halları genişləndi.

Yer kürəsində, hal-hazırda 4500 din, 8 milyard,73 milyon insan var və bu saydan cəmi 1.5 milyard insan müsəlmandır. 1.5 milyardın da 1 milyardı, bəlkə də çoxu oxuduğuna deyil, eşitdiyinə inanır. Əgər bütün müsəlman cəmiyyətlərində sorğu keçirsək və "Sən niyə müsəlmansan" sualını kütləvi şəkildə ünvanlasaq, əksər insanlar eyni tipli cavablar verəcəklər: "Babam müsəlman olub, atam-anam müsəlmandır, cəmiyyət və mühit müsəlmandır və s". Özünə müsəlman deyən bu kütlə, "dində filan şey nə cürdür və ya "Quran"dakı filan ayəni hansı mənada başa düşürsən?" tipli sualların qarşısında yalnız "bilmirəm" deyə susacaqdı [3]. (O cümlədən dindaxili məzhəblər və əksər məzhəb nümayəndələri də belədir)... Dini inancının mahiyyətini başa düşməyən bir insanın müsəlman, qeyri-müsəlman, xristian, yəhudi, buddist, yahova şahidi, şaman və s. olmasının nə fərqi var axı !

Müasir dövrdə kilsə və məscidlər dindarlar üçün Allahın adının çəkildiyi, qulluq vəzifəsinin yerinə yetirildiyi yerlər olduğuna eləcə də müsəlmanların ibadət evi, yəni gənclərin şəxsi, daxili - mənəvi həyatının təşkilatçısı və qoruyucusu rolunu öz üzərinə götürdüyü üçün möminlər arasında daha yaxşı anlaşmanın əldə edilə biləcəyinə böyük ümidlər bəsləyir. Həmçinin, məscidin cəlbediciliyi, onun xeyriyyəçilik, təhsil, tərbiyə və insan hüquqları sahəsində fəaliyyəti də bu işdə müsbət rol oynayır. Başqa sözlə, Azərbaycan cəmiyyətində özünəməxsus "dinləşmə", yəni məscid və dini adətlərin gənclərin şüuruna və davranışına təsiri genişlənir. Azərbaycan cəmiyyətinin müasir dövrünün mühüm problemi yalnız gənc nəslin dəyərlərinə yenidən yönləndirilməsi deyil, həm də milli-zehni xüsusiyyətləri və bazar yönümünü ahəngdar şəkildə birləşdirəcək həyati dəyərləri əhatə edən strukturun formalaşmasıdır.

Müasir Azərbaycanın demokratik inkişafı cəmiyyətin üzləşdiyi dini təhdidlərə və fanatizmə qarşı mübarizə strategiyalarında əsas diqqət gənclərə verilir. Ölkə əhalisinin böyük hissəsini təşkil edən gənclərin demokratik dəyərlər ətrafında birləşməsi, həmrəy olması bu problemin aradan qaldırılmasına töhfə verə bilər. Bu məqsədlə 2024 cü ilin may ayında " Rəy Monitorinq Mərkəzi" və BDU-nun Sosiologiya ixtisasında təhsil alan bir qrup IV kurs tələbələri ilə cəmiyyətdə dinin yeri və dini dəyərlərin tədqiqinə həsr olunmuş " Azərbaycan gəncliyi və din" mövzusunda Bakı şəhərində və BDU-da sosioloji tədqiqatlar aparılmışdır.

Sorğu üçün seçilmiş respondentlər (Bakı şəhəri) və əməkdaşlar (BDU) təsadüfi sosioloji-riyazi üsulla müəyyən olunmuşdur. Sorğuda Bakı şəhərindən 15-35 yaşında 660, BDU-dan isə 186 respondent iştirak etmişdir. Bütövlükdə sorğuda iştirak edən gənclərin 57,3%-i kişi, 42,7%-i isə qadın olmuşdur. Respondentlərin 35,2%-i orta, 39,2%-i ali, 23.1% -i isə natamam ali təhsilli olmuşlar.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 411-421*

Aparılan sosioloji tədqiqatlar özünü dindar elan edən böyük əksəriyyətin dindarlığının orta səviyyədən bir qədər yüksək olduğunu göstərirdi. 1-ci cədvəldə dinin insanların həyatında oynadığı rolun dinamikası əks olunub. Sosioloji tədqiqatın nəticəsinə görə, sorğuda iştirak edən 846 (ümumi rəqəmlər götürülür) respondentin 69,2%-i dinin həyatlarında vacib rol oynadığına inanır. Yalnız Sorğuda iştirak edən gənclərin 26,9%-i dinin həyatında əhəmiyyətli rol oynamadığını, 6,3%-i isə heç bir rol oynamadığını bildirmişdir. Ancaq dərhal qeyd edək ki, Azərbaycan çoxkonfessiyalı və multikultural dəyərlərə üstünlük verən bir ölkədir, ona görə də bu mövzuda araşdırma aparmaq bir qədər çətindir.

**Cədvəl 1. Din sizin həyatınızda hansı rolu oynayır?**




2-ci cədvəldən göründüyü kimi, respondentlərin "Heç bir dinə münasibəti olmayan, ümumiyyətlə, dinlə bağlı söhbətlərdən qaçan insanlara necə yanaşırsınız " sualına 72%-i "Normal baxıram, öz seçimləridir"- cavabını vermişdir.

**Cədvəl 2. Heç bir dinə münasibəti olmayan,ümumiyyətlə dinlə bağlı söhbətlərdən belə qaçan insanlara necə yanaşırsınız?**



*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.411-421*

Sorğuda iştirak edən gənclərin 10.4%-i bu tip insanlara rast gəlmədiyini, 14,7%-i isə bu davranışı normal hesab etmədiyini bildirmişdir. Bu cavablar ölkəmizin əksər gənclərinin dinə münasibətdə tolerant baxışlarda olduğunu göstərir. Bakı şəhərində sorğu iştirakçılarının dini tərkibinin öyrənilməsi məqsədilə “Hansı dinin nümayəndəsiniz ” sualına sorğuda iştirak edən gənclərin 88,3%-i islam dininə inandığını, onun milli və dövlət ənənəsi olmasını qeyd etmişdir. İştirakçıların 4,8%-i deist, 1,3%-i xristian, 2,6% isə ateist olduğunu bildirmişdir. (Cədvəl 3)




“Din sadəcə ibadət üçün yox, həm də kütlələri idarə etmək üçün yaradılıb” fikrinə - respondentlərin 54,7%-i “ Xeyir, din allaha ibadət üçün yaranıb”- cavabını seçmişdir. 4-cü cədvəldən göründüyü kimi, yalnız rəyi soruşulanların 26.2%-i bəli, dinin toplumu idarə etmək üçün yaradıldığını, 19,1%-i isə cavab verməkdə çətinlik çəkdiyini bildirmişlər.



*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 411-421*

Bakı şəhərində az sayda olsa da, dinini dəyişmiş gənclərə də təsadüf etmək olur. Bunu öyrənmək məqsədilə, "Dinini dəyişənlərə münasibətiniz necədir" sualına respondentlərin 40,3%-i "yaxşı" və "əsasən yaxşı" baxdığını, 37,3%-i əsasən" pis" baxdığını demiş, 22,5%-i isə cavab verməkdə çətinlik çəkdikləri cavablarını vermişlər. (Cədvəl 5)

**Cədvəl 5. Dini baxışlarını dəyişənlərə münasibətiniz necədir?**




Sosioloqlara görə, tarixən insanların dindarlığı, daha çox ənənəyə bağlı olub və din iki istiqamətdə fəaliyyətini qurur: Əvvəla, rasional müstəvidə - bilik, ağıl, məntiq, dəlil, ikincisi isə emosional müstəvidə -qəlb, duyğu, hisslər və s. Hər ikisinin vəhdətdə götürülməsi vacibdir və dini fəaliyyətdə mühüm əhəmiyyət kəsb edir. Bu prosesdə emosiyaya üstünlük verilməsi dini fanatizmə, xurafata yol açır. "Bu kimi halların aradan qaldırılması ilə bağlı dini maarifləndirmə haradan başlanmalıdır" sualına müxtəlif cavablar verilmişdir. Sorğuda iştirak edən respondentlərin 72,1%-i dini maarifləndirmənin ailədən, 16,6%-i isə orta məktəbdən başlamalı olduğu cavablarını vermişlər. Bu prosesin dinamikası 6- cı cədvəldə əks olunub.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.411-421*

**Cədvəl 6. Sizcə, dini mariflәndirmə haradan başlanmalıdır?**




"Məlumdur ki, müasir dövrdə bütün cəmiyyətlər dərin dəyişikliklərə məruz qalır, onların intensivliyi daim artır. İnsan üçün belə bir sosial reallıqda dayaq nöqtəsi tapmaq, milli mental və dini dəyərlərə sadiq qalmaq getdikcə daha da çətinləşir. Bu proses son beş il və daha artıq dövrdə dinə münasibətinizi necə dəyişib" sualına sorğuda iştirak edənlərin 56,1%-i əvvəllər olduğu kimi yenə inanclı olduğunu, 17,4%-i indi daha çox dindar olmasını bildirmişlər.

7-ci cədvəldən göründüyü kimi, iştirakçıların 15,4%-i "Əvvəllər inanclı idim, lakin inancım hazırda zəifləyib", 5.6%-i "Əvvəllər inanclı deyildim, amma artıq inanıram", 5,6%-i "Əvvəllər də inanmırdım, indi də inanmıram" cavablarını seçmişlər.

**Cədvəl 7. Son 5 və daha artıq dövrdə dinə münasibətiniz necə dəyişib?**



*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 411-421*

"Azərbaycan toplumu üçün digər mühüm bir məsələ dini maarifləndirmə özündə nəyi əks etdirməlidir" sualına sorğuda iştirak edənlərin 70,2%-i bütün dinlər haqqında ümumi məlumat verilməsini, 22,9%-i isə yalnız islam dininin qaydalarının tədris edilməsinin dini maarifləndirmənin mahiyyətini əks etdirdiyi cavablarını seçmişdir. (Cədvəl 8)

**Cədvəl 8. Sizcə, dini maarifləndirmə özündə nəyi əks etdirməlidir?**




Sosioloji sorğuda cəmiyyətimiz üçün maraqlı qarşılanan suallardan biri də zərərli vərdişlərin aradan qaldırılmasında dinin təsir imkanlarının öyrənilməsi istiqaməti olmuşdur. Respondentlərin 53,1%-i zərərli vərdişlərin aradan qaldırılmasında dinin mühüm təsir imkanlarının olduğunu, 34,3%-i qismən təsirə malik olduğunu qeyd etmişlər. Yalnız 11,1%-i isə zərərli vərdişlərin aradan qaldırılmasında dinin təsirinin olmadığını bildirmişlər. Gənclərin cəmiyyət üçün zərərli vərdişlərdən azad olmasında dinin əhəmiyyətli təsir imkanlarına malik olması ideyasına üstünlük verməsi milli –mənəvi dəyərlərin transformasiyası prosesində dinin rolunu artırır.

Bakı şəhərində sorğuda iştirak edən respondentlərin əksər hissəsi özünü mömin hesab etməsinə baxmayaraq, onlardan yalnız 24,1%-i İslam dinin müəyyən etdiyi prosedurlara ciddi əməl edilməsini vacib hesab edir: ADAM Center-in 1998-ci il sorğusuna əsasən, bu rəqəm 11,5% təşkil edib. 2023-cü ildə keçirilən sorğuda da oxşar nəticələr əldə edilib: Azərbaycan əhalisinin 12%-i mütəmadi olaraq müqəddəs yerlərdə ziyarətdə olur, 22%-i isə öz dinlərinin göstərişlərinə müntəzəm olaraq əməl edir. Müqayisə üçün qeyd edək ki, Qərbdə yaşayan yəhudilər arasında sinaqoqlar da müntəzəm iştirak nisbəti təxminən 30% təşkil edir (ICM Poll) [4].

Gallup İnstitutunun (1992-1999) məlumatına görə, ABŞ-da kilsə və ya sinaqoqa baş çəkmək tezliyi də nisbətən yüksəkdir: orta hesabla respondentlərin 35%-i həftədə ən azı bir dəfə kilsə və ya sinaqoqda olur. ABŞ həm də sadə sxemə uyğun gəlmir - "az pul - daha çox inam". Sorğuda iştirak edən hər on amerikalıdan yeddisi tanrılarını müdafiə edərkən öləcəklərini etiraf edib. Amerikalıların daha böyük faizi dini kitablar öyrəndiklərini deyirlər (ICM Poll) [5].

Sosioloji sorğu respondentlər arasında dərin imanın orta səviyyəyə yaxın olduğunu aşkar etmişdir. Çox güman ki, sorğu iştirakçılarının bəziləri İslamı "Quran"ın müəyyən etdiyi xüsusi inanclar, etik prinsiplər və dini proseduralar toplusu olmaqla yanaşı, öz şəxsiyyətlərinin bir hissəsi olan müəyyən bir mədəniyyət (Mədəni Müsəlmanlar) kimi də qəbul edirlər. İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrikində deyilir: "Azərbaycan müsəlman dünyasının ayrılmaz parçası kimi tarix boyu islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və multikultural mühitin yaranmasında islam dininin də müstəsna rolu olmuşdur." [1]

Beləliklə, müasir dövrdə din milli, mədəni və fərdi identifikasiya yolu kimi qəbul edilir. Fikrimizcə, bu tendensiya bu gün də aktuallığını saxlayır. Din sosiologiyası bir elm kimi mövcud olduğu nisbətən qısa bir müddətdə dinin nəzəri inkişafı istiqamətində çox mühüm uğurlar qazanmış, dinin əsas xüsusiyyətlərini ifadə edən bir neçə model təklif etmiş, onun sosial funksiyalarını müəyyənləşdirmiş, dini bir sosial institut kimi təhlil obyektinə çevirmiş, yalnız Qərb dünyasında deyil, Azərbaycanda da gələcək vəziyyəti ilə bağlı bir sıra proqnozlar verərək inkişaf tendensiyalarını araşdırmışdır. Məlum olmuşdur ki, dinin gələcəyi bəşəriyyətin mənəvi simasını qoruyub-qorumayacağı sualına cavab axtarışında verəcəyi töhfənin nə dərəcədə sosial baxımdan əhəmiyyətli ola biləcəyindən asılıdır.

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, 15 iyun 2024-cü il
2. Вебер М. Хозяйственная этика мировых религий // Вебер М. Избранное. Образ общества, М., 1994, с.43-46.
3. Ahmed Essa & Othman Ali Studies in Islamic Civilization: The Muslim Contribution to the Renaissance Publisher: "İdrak" İctimai Birliyi. 2020. pp330. Pp-38-39
4. 2022 Report on International Religious Freedom: Azerbaijan https://www.state.gov/reports/2022-report-on-international-religious-freedom/azerbaijan/

5. Rebecca Paveley. Pew study finds seven in ten Americans ‘spiritual in some way’ Churchtimes” January 2024 pp14
6. Тадеуш Святоховский. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане. – Сборник: «Азербайджан и Россия: общества и государства». – Москва, 2001 р. 34-35
7. Statistical data in the religious sphere by reference. http://scwra.gov.az/pages/32/?
8. İsmayılov Gündüz. Azərbaycanda dini məsələ: Təhdidlər və hədəflər ideoloji, milli, ictimai təhlükəsizlik müstəvisində. Bakı. 2016. “Nəşriyyat XXI əsr”. P.156.

## XÜLASƏ

Azərbaycan, əsrlər boyu bir çox sivilizasiyaların və mədəniyyətlərin qovşağında yerləşərək, unikal bir mədəni mühit formalaşdırmışdır. Bu coğrafiyada dini azadfikirlik və tolerantlıq ənənələri dərin köklərə malikdir. Tarix boyu müxtəlif dini və mədəni cərəyanlar – atəşpərəstlikdən tutmuş islam, xristianlıq və yəhudiliyə qədər – burada birgə mövcud olmuş, bir-birini qarşılıqlı təsirləndirmişdir.

Azərbaycan mədəniyyəti Şərq və Qərb dünyalarının, türk və iran sivilizasiyalarının, Qafqazın yerli xalqları və slavyan dünyasının, hətta sosializm ideologiyasının elementlərini özündə birləşdirərək bənzərsiz bir sintez yaratmışdır. Bu zəngin inteqrasiya nəticəsində, ölkə yalnız keçmişin yadigarı olan irsi qoruyub saxlamamış, eyni zamanda müasir dünyaya nümunə ola biləcək inkişaf modelləri də yaratmışdır.

Bu unikal vəziyyət, Azərbaycanın həm regionda, həm də beynəlxalq miqyasda mədəniyyətlərarası dialoq və əməkdaşlıq üçün mühüm platforma rolunu oynamasına şərait yaratmışdır.

## РЕЗЮМЕ

Азербайджан, находясь на пересечении различных культур, сформировал уникальную культурную среду. Здесь испокон веков сосуществовали и взаимодействовали различные религии и мировоззрения – от зороастризма до ислама, христианства и иудаизма. Страна славится своей религиозной терпимостью и свободомыслием.

Культура Азербайджана вобрала в себя элементы Востока и Запада, тюркской и иранской цивилизаций, народов Кавказа и славянского мира, а также идеологии социализма. Это привело к формированию уникального культурного синтеза и моделей развития, представляющих интерес для всего мира.

Благодаря этому Азербайджан стал важной платформой для межкультурного диалога и сотрудничества как в региональном, так и в международном масштабе.

**Ключевые слова:** религия, религиозный радикализм, религиозная угроза, социологический опрос, метод исследования

**Aghayev Tahir Bayram oglu**

## AZERBAIJANI YOUTH AND RELIGION: A SOCIOLOGICAL ANALYSIS IN THE CONTEXT OF PUBLIC OPINION

### SUMMARY

Azerbaijan, located at the crossroads of various cultures, has formed a unique cultural environment. For centuries, diverse religions and worldviews—from Zoroastrianism to Islam, Christianity, and Judaism—have coexisted and interacted here. The country is known for its religious tolerance and free-thinking traditions.

Azerbaijani culture blends elements from East and West, Turkic and Iranian civilizations, Caucasian and Slavic peoples, as well as the ideology of socialism. This fusion has resulted in the development of distinctive cultural models that serve as examples for global progress.

As a result, Azerbaijan has become an important platform for intercultural dialogue and cooperation both regionally and internationally.

**Keywords:** religion, religious radicalism, religious threat, sociological survey, research method

**Rəyçi: Sosiologiya üzrə fəlsəfə doktoru, dosent Yaqut Əliyeva**